NATO | OTAN

# NATO-nu tanıyın

ƏLAVƏ MƏLUMAT üçün saytımız: www.nato.int



## Insanların müdafiəsi

Biz çox zaman təhlükəsiz və iqtisadi cəhətdən sabit mühitdə azad gəzməyi təbii hal kimi qiymətləndiririk. Gündəlik həyatımızın bütün sahələrində olan təhlükəsizlik firavan yaşayışımız üçün əsas şərtdir.

## Tərəfdaşlığın inkişafı

Dialoq və əməkdaşlığın qurulması sülh əlaqələrinin yaradılması və daha dərin beynəlxalq anlaşmanın əldə olunması üçün çox vacibdir.

İnam yaratmaq və münaqişələrin qarşısının alınmasına yardım məqsədilə NATO öz üzvlərinə və tərəfdaş ölkələrə müdafiə məsələlərində məsləhətləşmələr aparmaq imkanı verir.

Praktik əməkdaşlıq və çoxtərəfli təşəbbüslər vasitəsilə ölkələr təhlükəsizlik sahəsində yaranan yeni problemləri birlikdə həll edirlər.

## Yeni təhlükələrə qarşı mübarizə

Təhlükələrin xarakteri dəyişdiyi üçün sülhün qorunması üsulları da ona uyğun olmalıdır. NATO özünün müdafiə qüdrətini hal-hazırda mövcud olan təhlükələrə uyğun dəyişir. Terrorçuluq, uğursuz dövlətlər və kütləvi qırğın silahları kimi digər təhlükəsizlik problemlərinin öhdəsindən gəlmək üçün Təşkilat öz qüvvələrini müasir tələblərə uyğunlaşdırır və çoxmillətli yanaşmaları inkişaf etdirir.

## Sülhün və sabitliyin qurulması

Sabitlikdən bir sıra tərəflər eyni zamanda faydalana bilər. Təhlükəsizliyə zərbə vura biləcək hər hansı gərgin vəziyyətin mövcud olduğu regionlarda sabitliyin təmin olunması çox vacibdir. Buna görə də NATO digər beynəlxalq təşkilatlarla birlikdə böhranlı vəziyyətin aradan qaldırılması işində fəal iştirak edir.

## Üzv və tərəfdaş ölkələri

Şimali Atlantika Sazişi 1949-cu il aprelin 4-də imzalanıb

### ÜZV ÖLKƏLƏR (TƏŞKILATA DAXILOLMA TARIXI ILƏ BIRLIKDƏ)

- Albaniya /2009
- Belçika /1949
- Bolqarıstan /2004
- Kanada /1949
- Xorvatiya /2009
- Çexiya Respublikası /1999
- Danimarka /1949
- Estoniya /2004
- Fransa /1949
- Almaniya /1955
- Yunanıstan /1952
- Macarıstan /1999
- İslandiya /1949
- İtaliya /1949
- Latviya /2004
- Litva /2004
- Lüksemburq /1949
- Hollandiya /1949
- Norveç /1949
- Polşa /1999
- Portuqaliya /1949
- Ruminiya /2004
- Slovakiya /2004
- Sloveniya /2004
- İspaniya /1982
- Türkiyə /1952
- Birləşmiş Krallıq /1949
- Amerika Birləşmiş Ştatları /1949

### SÜLH NAMINƏ TƏRƏFDAŞIQ (SNT) ÖLKƏLƏRİ

- Ermənistan
- Avstriya
- Azərbaycan
- Belorusiya
- Bosniya və Hersoqovina
- Finlandiya
- Gürcüstan
- İrlandiya
- Qazaxıstan
- Qırğızıstan
- Malta
- Moldova
- Černoqoriya
- Rusiya
- Serbiya
- İsveç
- İsveçrə
- Tacikistan
- keçmiş Yuqoslaviya Respublikası Makedoniya*
- Türkmənistan
- Ukrayna
- Özbəkistan

### ARALIQ DƏNIZI DIALOQU TƏRƏFDAŞLARI

- Əlcəzair
- Misir
- İsrail
- İordaniya
- Mavritaniya
- Mərakeş
- Tunis

### ISTABUL ƏMƏKDAŞLIQ TƏŞƏBBÜSÜ (IƏT) ÖLKƏLƏRİ

- Bəhreyn
- Küveyt
- Qətər
- Birləşmiş Ərəb Əmirlikləri

*Türkiyə Makedoniya Respublikasını konstitusiya adı ilə tanıyır.




# NATO nədir?

Şimali Atlantika Müqaviləsi Təşkilatı dünyanın ən mühüm beynəlxalq təşkilatlarından biridir. Bu hərbi və siyasi Alyans Avropa və Şimali Amerika qitəsinin 28 dövlətini birləşdirir.

Təşkilata üzv ölkələr təhlükəsizlik və müdafiə sahəsində məsləhətləşmələr aparmaq üçün görüşlər keçirir NATO dünyanın bu iki qitəsi arasında siyasət və müdafiə sahələrində əməkdaşlıq tellərinin inkişafında əvəzolunmaz rol oynayır.

## NATO nə edir?



NATO-nun əsas vəzifəsi ona üzv ölkələri siyasi və hərbi vasitələrlə müdafiə etməkdir. Təşkilat həmçinin Alyansa üzv olmayan ölkələrlə bir sıra təhlükəsizlik məsələləri, xüsusilə müdafiə sistemində islahatlar və sülhyaratma sahələrində məsləhətləşmələr aparmaqda və əməkdaşlıqda maraqlıdır.

Müzakirələr və tərəfdaşlıq proqramları vasitəsilə NATO ona üzv ölkələrin sərhədləri daxilində və xaricində baş verən münaqişələrin qarşısının alınmasına yardım edir.

Bu Alyans demokratik dəyərləri müdafiə edir və münaqişələrin sülh yolu ilə nizamlanmasındı dəstəkləyir. Diplomatik səylərin iflasa uğradığı halda NATO təklikdə, yaxud digər ölkələrlə və beynəlxalg təşkilatlarla birgə əməkdaşlıqda böhranlı vəziyyətin aradan qaldırılması və sülhyaratma əməliyyatlarının aparılması üçün kifayət qədər hərbi qüvvəyə malikdir.

NATO-nun fəaliyyətinin üçüncü mühüm sahəsi fövqəladə hallarda mülki müdafiyənin planlaşdırma, müttəfiqlərə və tərəfdaşlara müxtəlif fəlakətlərin öhdəsindən gəlməkdə yardım etmək, eləcə də elm və ətraf mühit sahəsində əməkdaşlığı inkişaf etdirməkdir.

## NATO necə işləyir?

Təşkilata üzv olan hər bir ölkənin NATO-nun Brüsseldə yerləşən siyasi qərargahında daimi nümayəndəliyi var. Nümayəndəliyə başçılıq edən səfir öz ölkəsinin hökumətini İttifaqın məsləhətləşmələr və qərarların qəbulu prosesində təmsil edir.

Şimali Atlantika Şurası təşkilatın siyasi qərarlar qəbul edən mühüm siyası orqanıdır. Bu qurum NATO Baş Katibinin sədrliyi ilə müxtəlif səviyyələrdə görüşlər keçirir, Baş Katib isə mühüm məsələlərin həllinə dair razılaşmanın əldə olunmasında Şura üzvlərinə yardım edir.

NATO-nun komitələri bütün qərarları konsensus yolu ilə qəbul edir. Beləliklə, "NATO-nun qərarı" bütün üzv ölkələrin kollektiv istəyinin ifadəsidir.

NATO-nun daimi hərbi qüvvələri azlıq təşkil edir. Hər hansı əməliyyat Atlantika Şurası tərəfindən razılaşdırıldıqda üzv ölkələr könüllü əsaslarla öz hərbi qüvvələrini təklif edir. Bu qüvvələr öz missiyalarını bitirən kimi vətənə qayıdırlar.

Hərbi kommandanlıq əməliyyatların əlaqələndirilməsi və idarə olunmasını həyata keçirir. Bu qurumun qərargahları və bazaları müxtəlif üzv ölkələrdə yerləşir.

NATO-nun gündəlik fəaliyyəti, mülki və hərbi strukturları və müdafiəyə sərmayə proqramları təşkilatın ümumi büdcəsi hesabına maliyyələşdirilir. Ümumi büdcə üzv ölkələrin razılaşdırılmış formul üzrə ödədikləri vəsaitlər hesabına formalaşır.



© NATO 2010 - AZE